*A.Əlizadə. İrfan ədəbiyyatında kamil insan konsepsiyası*
*// Əlyazmalar yanmır, 2019, № 2 (9), s.47-55.*

UOT: 82.0

**Aygün Əlizadə**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent, aparıcı elmi işçi*
*AMEA Z.M.Büynadov adına Şərqşünaslıq İnstitutu*
*Bakı ş. Hüseyn Cavid küç. 117.*
*e-mail: aygunalizade@yahoo.com*

# İRFAN ƏDƏBİYYATINDA KAMİL İNSAN KONSEPSİYASI
## (Fəridəddin Əttar yaradıcılığı əsasında)

*İrfani məzmunlu əsərləri digər əsərlərdən fərqləndirən xarakterik cəhət onlarda kamil insan konsepsiyasının əsas götürülməsidir. Yəni bu əsərlərdə insan həqiqi kamilliyə çatmaq üçün Allahın yolunda addımlamalı, müxtəlif mərhələ və məqamları keçdikdən sonra yaradanına qovuşmalıdır. Əttarın "Məntüqüt-teyr" əsərinə əsasən Allaha qovuşmaq üçün salik yeddi eşq vadisini keçməli, özünü bu dünyanın bağlılıqlarında tam qırlmalıdır ki, məqsədinə çata bilsin. İrfan ədəbiyyatı belə misallarla çox zəngindir və bu məqalədə onların bəzisinə toxunulmuşdur.*

***Açar sözlər:*** *irfan ədəbiyyatı, kamil insan, əsər, ruh*

**Giriş**

*Əttarın irfani mənzumələrinin təhlilinə keçməzdən qabaq bir məsələni xüsusilə qeyd etmək lazımdır ki, belə məzmunda yazılan əsərlər daha çox mənəviyyat aləmi ilə bağlı olan əsərlərdir. Yəni istər Sənayi Qəznəvi, istər Fəridəddin Əttar, istərsə də Cəlaləddin Rumini birləşdirən ümdə cəhət onların əsərlərində maddi aləmin yox, mənəvi aləmin xüsusiyyətlərinin təcəssümüdür.*

عطار روح بود و سنایی دو چشم او
ما از پی سنایی و عطار آمدیم.

Əttar ruh idi və Sənayi onun iki gözü,
Biz Sənayi və Əttarın ardınca gəlmişik.

Yəni bu məzmunlu əsərlərin ruhlar aləmi ilə bağlı olduğunu unutmaq olmaz. Biz insanlar hər bir şeyin maddi varlıqlar şəklində təzahür etməsinə öyrəşmişik. Çünki insanın xilqəti elə yaradılmışdır ki, gözü ilə gördüyünə inanır. Əlbəttə, hiss üzvləri insanın ağlının inkişafına təsir göstərən amillərdir. Amma Əttarın "Müsibətnamə" əsərində gördüyümüz kimi bunlar insanı kamilləşdirməyə kifayət etmir. Yəni insanın kamilləşməsi üçün başqa vasitələr də vardır. Quran maddə şəklində bizim gözlərimiz önündə olsa da, onun içindəkilər tamamilə başqa bir aləmə məxsusdur. Bunu qeyd etmək istəyirik ki, Quran insanlara başqa bir aləmdən nazil olmuşdur. Nə üçün başqa bir aləm deyirik? Çünki Quranı nazil edən, onu Peyğəmbərə çatdıran varlıq insanın hiss üzvlərindən üstündür. Deməli, əgər Quran başqa aləmdən gəlmişsə, onda insanın cismi yox, ruhu da başqa bir aləmdən bu dünyaya göndərilmişdir. Başqa sözlə desək, Quran insanın cismi üçün deyil, onun ruhu üçün nazil olmuşdur. Sənayi,

Əttar, Mövlana başqa aləmdən bu dünyaya gələn insanı tanımağa çalışmış, onun haradan gəlməsi, niyə gəlməsi, hara gedəcəyi məsələlərini öz irfani məzmunlu əsərlərində araşdırmağa çalışmışlar. Buna görə də, onlar insan haqqında mövcud olan düşüncələrini öz ölməz əsərlərində bəyan etmişlər. Bu məqalədə kamil insan konsepsiyası Əttarın "Məntiqüt-teyr", "İlahinamə" və "Müsibətnamə" əsərləri əsasında araşdırılmışdır. Əlbəttə, kamil insan haqqında irəli sürülən konsepsiyanı bir məqalədə vermək qeyri-mümkündür. Amma Əttarın yaradıcılığı baxımından bəzi məqamlara aydınlıq gətirmək istəyirik. Adını çəkdiyimiz əsərlərin hər birinin çox gözəl və dərin bir ideyası vardır. Xüsusilə, Əttarın fikrincə, insan kamilləşməli və öz əslini tanımalıdır. Bəs insanın əsası nədir? Fəridəddin Əttarın üç əsərini mütaliə etdikdən sonra belə qənaətə gəldik ki, onun fikrincə, insanın ruhu yüksəlməli və sonda yenə ruha çatmalıdır.

Fəridəddin Əttarın əsərlərini araşdırarkən qarşılaşdığımız maraqlı faktlardan biri onun əsərlərinin sanki bir dairəni xatırlatması olmuşdur. Yəni əsərlərin süjet xətti hansı nöqtədə başlayırsa, həmin nöqtədə də sona çatır. Amma fərq bundan ibarətdir ki, qayıdış nöqtəsində salik həqiqətə çatmış vəziyyətdə olur. Belə ki, onun üç əsəri "Məntiqüt-teyr", "İlahinamə" və "Müsibətnamə" əsərinin süjet xəttindəki eynilik diqqətimizi cəlb etmişdir.

Bu əsərlər arasında müqayisə apardıqdan sonra qətiyyətlə deyə bilərik ki, Əttarın fikrincə insan ruhunun kamilləşməsi onun Cəbrayıla qovuşmasındadır. "Məntiqüt-teyr"də quş yola düşür, sonda Cəbrayıla çatır. "Müsibətnamə"də fikir Cəbrayıla yaxınlaşır sonda ruha çatır. "İlahinamə"də ruh atadır və o, ruhun kamilləşməsi üçün yolları göstərir. Yenə də məqsəd kamilliyə çatmaqdır. Bəlkə də buna görədir ki, Mövlana Əttar haqqında şeir deyəndə onu ruh adlandırır.

"İlahinamə" əsərini oxuyanda məlum olur ki, Əttar insan fikrini iki hissəyə bölür. Onlardan biri zikr nəticəsində yaranan fikirdir. Digəri isə təxəyyül və ağıl əsasında yaranan fikirdir. Həqiqət yolçusu olan salik zikr əsasında yaranmış fikrdə addımlamalıdır. Bu fikir qeyb aləmindən qaynaqlanır. Amma təxəyyülə və ağıla əsaslanan fikirlər danışıq əsasında formalaşır. Hətta sonrakı beytdə ağıl əsasında fikir irəli sürənləri kəskin şəkildə kafir adlandırır. Ariflər isə öz fikirlərini qəlblərində yaradırlar. Deməli, burada beyində olan ağıl, qəlbdə olan zikrdən aşağıdır. Kimin fikri beyində yox, qəlbdə yaranarsa, hər iki dünyanın sirlərindən agah ola bilər. Bu da insanın kamilliyə çatması yoludur.

Əttarın hər üç əsərində ana xətti təşkil edən konsepsiyası budur ki, insanı Allaha çatdıran yeganə vasitə onun ruhudur. İnsan bunu dərk etdikdən sonra, öz varlığının mahiyyətini anladıqdan sonra yola düşməli və bu yolun çətinliklərinə qatlaşmalıdır ki, sonda məqsədinə çatsın. Amma məqsədinə çatdıqdan sonra insan əslində öz əzəmətini dərk edir. Yəni ona bu əzəməti verən ruhudur. Əslində bütün səmavi dinlərin məqsədi də budur ki, insan öz əzəmətini dərk etsin. Sənayi, Əttar, Mövlana kimi dahi şairlər də bu konsepsiyadan çıxış edərək çox dərin irfani əsərlər qələmə almışlar.

Əttar kamala tərəf hərəkətdə olan ruhun keçdiyi yolları 5, 6 və 7 sayda qeyd etmişdir. "Müsibətnamə"də beş vadini keçir, "İlahinamə"də 6 oğul, "Məntiqüt-teyr"də yeddi eşq vadisi vardır.

Amma "Müsibətnamə" qərarsız və vurğun yolçunun dastanıdır ki, pirin yardımı ilə öz varlığından daha üstün həqiqətin axtarışındadır. O öz səfərinə mələkut aləmindən başlayır, mələklərdən hər birinin yanına gedib onların xüsusiyyətlərini sadalayır və onlardan həqiqətə çatmaq üçün bələdçilik etmələrini istəyir. Amma onlar bu yolda öz zəiflik və bacarıqsızlıqlarını bəyan edirlər. Salik yorğun və təşnə halda təbiət ünsürləri – dağ, yer, göy və s.-nin yanına gedir və nəhayət peyğəmbərlərin pak və nurani aləminə yol tapır. Peyğəmbərlərdən hər biri özünün üstün xüsusiyyətlərinə baxmayaraq, onu kamil insan Həzrət Məhəmmədə (s) tərəf yönəldirlər. O, Adəmi (ə) bəndəlik, Nuhu (ə) dərd və müsibət, İbrahimi (ə) dostluq və təslim, Davudu (ə) ixlas, Musanı (ə) eşq, İsanı (ə) paklıq, kərəm və lütf məqamında görür. Salik

Məhəmmədə (s) çatanda onu fəqr məqamında tapır ki, bütün peyğəmbərlərin xüsusiyyətləri onda cəmlənmişdir.

"Məntiqüt-teyr"də vadilərin sayı yeddidir: tələb, eşq, mərifət, istiqna, tövhid, heyrət, fəqr və və fəna.

پسر هر یک ترا صاحب قرانیست      که اندر فن خود هر یک جهانیست
یکی نفسست و در محسوس جایش      یکی شیطان و در موهوم رایش
یکی عقلست و معقولات گوید      یکی علمست و معلومات جوید
یکی فقرست و معدومات خواهد      یکی توحید و کل یک ذات خواهد.
چو این هر شش بفرمان راه یابند      حضور جاودان آنگاه یابند (5, 29)

Sənin hər bir oğlun müzəffər padşahdır
Hər biri öz fənnində bir cahandır
Biri nəfsdir və hisslərdədir yeri
Biri şeytandır və xəyaldadır rəyi
Biri ağıldır və ağıllı sözlər deyər
Biri elmdir və məlumat axtarar
Biri fəqrdir və yoxluq istəyər
Bir tövhiddir və bütöv bir zat istəyər.
Bunların altısı da fərmana yol tapsalar
Əbədi hüzuru onda taparlar.

Əttar da öz əsərlərində həqiqət axtarışında olan bir insanın simasını yaratmışdır ki, həqiqəti tapmaq üçün süluk yolunun bütün çətin mərhələlərini qət edir, əzəliyyət Qafının zirvəsində öz varlığını pərvanə təkin həqiqət Simurğunun eşq atəşində məhv edir. Əttarın "Məntiqüt-teyr"də rəmzlərdən istifadə etməsi onun poeziyasına xüsusi gözəllik bəxş etmişdir.

O özünün "İlahinamə", "Məntiqüt-teyr" və "Müsibətnamə" əsərlərində şəriət, təriqət və həqiqət arasında qırılmaz bir bağlılıq yaradır. "İlahinamə"dəki qəhrəmanı İlahi xəlifə məqamı ilə tanış edir. O, nəfslə mübarizə, şeytana qalib gəlmək, əqli və əməli kamala çatmaq mərhələlərini keçib Peyğəmbərin (s) iftixarı olan fəqr məqamına nail olmalıdır. "Məntiqüt-teyr"də salik yeddi eşq vadisi – tələb, eşq, mərifət, istiqna, tövhid, fəna və fəqr vadiləri ilə tanış olmalıdır. Əttar "Məntüqüt-teyr"də təriqət tablosunu öz kəlam fırçası ilə ən gözəl şəkildə yaratmışdır.

گفت ما را هفت وادی در ره است      چون گذشتی هفت وادی، درگه است
هست وادی طلب آغاز کار      وادی عشق است از آن پس، بی کنار
پس سیم وادی است آن معرفت      پس چهارم وادی استغنا صفت
هست پنجم وادی توحید پاک      هست پنجم وادی توحید پاک
هفتمین وادی فقر است و فنا      بعد از این روی روش نبود تو را(8)

Dedi: Bizim yolda yeddi vadimiz var
Yeddi vadini keçdikdən sonra saray var
İşin əvvəlində tələb vadisi var
Ondan sonra ucsuz-bucaqsız eşq vadisidir.
Onun üçüncü vadisi mərifətdir
Dördüncü vadisi isə istiqnadır.
Beşinci vadi pak tövhiddir
Altıncı vadi ağır heyrətdir
Yeddinci vadi fəqr və fənadır
Bundan sonra sənin yolun qalmadı.

"Müsibətnamə"də insanın dərki mərhələlərinə işarə olunmuş, "Məntiqüt-teyr"də salikin batinində baş verən dəyişikliklərdən, "İlahinamə"də ruhu kamilləşmədən saxlayan cəhətlərdən istifadə olunmuşdur. Deməli, bu dairədə insanın idrakı, getdiyi yol və onu kamilləşmədən saxlayan səbəblər göstərilməlidir.

Əttarın fikrincə kamilləşmə yolları bunlardır: ruh fikirlə kamilləşə bilər, ruh daxildə baş verən dəyişikliklə kamilləşə bilər, bir də ruh mübarizə ilə kamilləşə bilər.

Əttarın əsərlərində irəli sürdüyü digər məsələ insana öz nöqsanlarını göstərməsidir. İstər "Məntiqüt-teyr"də, istər "İlahinamə"də, istərsə də "Müsibətnmaə"də insanları həqiqət axtarışından saxlayan maneələr göstərilmişdir. Məsələn, "Məntiqüt-teyr" əsərində hər bir quş insanların malik olduğu pis xislətlərlə tanıtdırılır. Həmin quşlar bülbül, tutuquşu, tovuz, ördək, kəklik, humay, qırğı, danquşu, bayquş, alacəhrədir. Bu quşların hər biri bir bəhanə ilə səfərə çıxmaqdan çəkinirlər. Əslində isə Əttar göstərmək istəyir ki, insanları nələr həqiqətdən saxlayır. Həmin manelər bunlardır: bülbül gözəllik aşiqi, tutuquşu əbədi həyat, tovuz behişt eşqi, ördək zahiri paklıq, kəklik ləl-cəvahirat vurğunu, humay nüfuz və iqtidar, qırğı bir qarın çörəyə görə qüdrətlər qarşısında əyilən, danquşu kədər, hüzn, bayquş dünya xarabalığında xəzinə axtaranlar, alacəhrə insanın zəif olduğunu təbliğ edənlərin nümunəsidir. Deməli, gözəllik, ədəbi həyat, behişt eşqi, zahiri paklıq, ləl-cəvahirat, nüfuz və iqtidar, yaltaqlıq, kədər, xəzinə axtarışı və insanı zəif saymaq insanın özünü tanımasına və həqiqət axtarışına mane olur.

Fəridəddin Əttar şanapipiyin dili ilə bunların hamısına çox məntiqli cavab verir və onların bu bağlılıqlardan qırılıb haqqa doğru hərəkətini istəyir. Məsələn, bülbül gülün eşqini hər şeydən üstün tutur. Çünki gül gözəllik rəmzidir. Amma şanapipik ona deyir ki, gülün müvəqqəti gözəlliyi səni ədəbi gözəllikdən saxlayır. Gül gözəl olsa da, ömrü çox qısadır.

Tutuquşu o qədər elmə aludə olur ki, son anda məlumdan (Allahdan) qalır. Şanapipik isə deyir ki, elm alimi məluma qovuşdurmalıdır. Amma alim elmə o qədər bağlanır ki, əsas hədəf olan məlum yaddan çıxır.

Bəzi insanlar behiştə getmək məqsədilə ibadət yolunu seçirlər. Onlar o qədər ibadətlə məşğul olurlar ki, haqqın görüşündən belə məhrum olurlar. Ona görə də belə insanları nəfsinə tabe olanlar adlandırır.

Bir sözlə, Əttar insanlarda olan bütün mənfi xüsusiyyətləri bu bir neçə beytdə təsvir edir və onlardan xilas olmanın yollarını da göstərir.

Yaxud "İlahinamə" əsərini oxuyanda yenə də insan ruhunda hakim olan mənfi xüsusiyyətlərlə tanış olururq. Böyük oğlan pərilər şahının qızını, ikinci oğlan sehr və cadu, üçüncü oğlan came-cəm, dördüncü oğlan dirlik suyu, beşinci oğlan Süleymanın üzüyü, altıncı oğlan kimyaya yiyələnmək istəyir. Onlardan hər biri öz səviyyələrində ataları ilə söhbət edirlər və atalarının dediklərinə diqqətlə qulaq asırlar. Atanın sözləri ilə desək, pərilər şahının qızına vurulmaq nəfspərəstlik, came-cəm istəmək hər şeylə maraqlanmaqdan, sehr və cadu istəklərin əsirinə çevrilməyin, dirlik suyuna ürək bağlamaq arzuların uzunluğu və dünya həyatına eşqdən, Süleymanın üzüyünü istəmək qüdrət sahibi olmaq, kimyanı mənimsəmək istəyi isə hərislikdən irəli gəlir. Atanın dediklərindən məlum olur ki, bütün bunlar dünyaya bağlılıqdan irəli gələn istəklərdir. Əttarın qəhrəmanı isə heç də bu istəklərlə dünyaya bağlanmamalı və azad quş kimi pərvaz etməlidir.

"Müsibətnamə" əsərində insanın tək varlıq olmmamsı, digər varlıqlarla ünsiyyəti haqqında yazılmışdır. İnsan 40 məqalədə sadalanan varlıqların hər birindən haqqa çatmaq üçün kömək istəsə də, sonda ona kömək edən özünün ruhu olur. Deməli, insanın ruhunda o qədər əzəmət vardır ki, cədvəldə göstərilənlərin hamısını özündə yerləşdirə bilər.

Hər üç süjet xəttində oxşarlıqlar vardır. Birinci insanın ruhu ilə başlayır, insan ruhunu həqiqətdən saxlayan maneələr göstərilir, bunların qurtulmağın yolları təqdim olunur ("Məntiqüt-teyr"də yeddi eşq vadisi, "Müsibətnamə"də beş vadi, "İlahinamə"də ata ilə birlikdə altı oğlul), sonda insan yenidən öz ruhuna qayıdır.

"Məntiqüt-teyr", "İlahinamə" və "Müsibətnamə" əsərlərinin süjeti ilə tanış olduq. "Məntiqüt-teyr"də ruh quşu olan salik həqiqət quşu olan Cəbrayıla çatır. "Müsibətnamə"də ruh fikri Cəbrayılla başlayıb sonda yenə ruha çatır. Bu əsərlərin əsas məqsədi nədir? Məqsəd insanın ruhunun kamilləşməsidir. Bu əsərlərin üçündə də ruh əsas qəhrəmandır. Amma bu ruh müxtəlif şəkillərdə təzahür etmişdir. Məsələn, "Məntiqüt-teyr" əsərində ruh quş, "İlahinamə"də ata, "Müsibətnamə"də fikirdir. Əsas məsələ ruhun müxtəlif təzahürlər şəklində verilməsi deyil, əksinə mühüm olan budur ki, hər üç əsərin süjeti ruhla başlayır və ruhda bitir.

Ümumiyyətlə, dinin də, elmin də sübuta yetirdiyinə əsasən insan iki hissədən ruhdan və cismdən ibarətdir. İrfani məzmunlu əsərləri digər əsərlərdən fərqləndirən başlıca cəhət onlarda cərəyan edən hadisələrin maddə aləmi ilə deyil, mənəviyyat aləmi ilə bağlılığından irəli gəlir. Əttarın qəhrəmanı quş, ata və fikir sonda yenə ruha çatır. Məsələn, "Məntiqüt-teyr" əsərində Şanapipiyin dəvəti ilə həqiqəti görmək ümidi ilə səfərə çıxan quşlar özlərinin həqiqət olduğunu anlayırlar. Amma bu həqiqəti dərk etmək üçün müxtəlif məşəqqətlər, əziyyətlərə dözmək lazımdır. Bu əsərdə quşlar Simurğa gəlib çatırlar. Simurğ Cəbrayılın yerində işlənmişdir. Cəbrayıl varlığın feyzi, insanla Allah arasında hidayət vasitəsidir. "Məntiqüt-teyr" əsərində quşlar yeddi eşq vadisini keçdikdən sonra Simurğun sarayına çatırlar. Onların öz varlıqlarının həqiqətini Simurğda müşahidə etmələrinin səbəbi ondadır ki, bütün varlıqlar bu mələk vasitəsilə yaranmışlar, ona qovuşub ona birləşdikdən sonra kamala çatırlar. Buradan belə nəticə çıxara bilərik ki, bütün ruhlar müqəddəs ruha tərəf yüksəlirlər. Əsərdə təsvir olunan on üç quş ruhu göstərir. Cəbrayıl insanları zülmətdən çıxarır, Şeytan isə insanları zülmətə tərəf aparır. İnsan Cəbrayıla çatmaq istəsə kamilləşər, şeytanı tutsa, zəlalətə düşər. Deməli, insanın ruhu ya yüksəlir, ya da enir. Yüksəldikcə Allaha yaxınlaşır, endikcə Allahdan uzaqlaşr. Eyni zamanda ruh yüksəldikcə qüdrətlənir. İnsan Cəbrayıla yüksəlmək istədikdə onun cismi ruhun idarəsində olur, uzaqlaşdıqca zəifləyir və cism ruhun üzərində qələbə qazanır. Ruh əbədi olduğuna görə məhv olmur, cism isə fani olduğuna görə aradan gedir. Ruhun əbədiliyinə ən adi misal insanları həqiqətə yönəltmək üçün yazılan əsərlərdir. Cismin hökmranlıq etdiyi ruh cismlə birləşdiyi üçün mövcud deyil və cismlə birgə ölür. Allah mələklərə Adəmə səcdə edin deyəndə cismin tabeliyinə olan ruha malik insanı nəzərdə tutmurdu. Çünki Şeytan Adəmi də aldatmışdır. Yaşadığımız dünya ruhu yüksəldən və alçaldan insanlar arasında mübarizə meydanıdır. Buradan belə nətcə ala bilərik ki, insanların ruhunu məhv edən cismlər nə qədər çox olsa, dünyanın sonu olacaq. Amma mələyə qədər yüksələn insanlar nicat tapacaqlar. Onda belə bir sual yaranır ki, əgər belədirsə, onda yüz iyirmi dörd min peyğəmbər niyə insanlara nazil olmuşdur? Əgər mələklər insanlara nazil ola bilərsə, niyə məhz seçilmiş insanlara nazil olurdular? Elə olmazdımı ki, hər bir insana ayrılıqda nazil olardılar? Deməli, Allah bununla göstərmək istəyir ki, Cəbrayıl ancaq Peyğəmbərlərə nazil ola bilər. Salik Cəbrayıla gedən yolu seçərsə, onda onun məqamı da peyğəmbərlər məqamında olar. Əsas məsələ kimin kimə yaxınlaşması deyil, əsas məsələ alınan nəticədir. Yəni sonda kamil insan da Peyğəmbər kimi Allahın vəhy mələyi ilə birləşə bilir. Əttarın təfəkkür tərzinə əsasən insanlar Cəbrayılı görmək istəyirlərsə, onda yeddi eşq vadisini keçməlidirlər. Şeytanla isə vəziyyət bir qədər fərqlidir. Çünki Şeytan daim pusqudadır ki, insanları həqiqət yolundan azdırsın. Burada sufilərin seçdiyi yol, onların əsas məqsədi bəlli olur. Əgər insan Allaha çatmaq istəyirsə, əvvəl Onun Peyğəmbərinə iman gətirməli, sonra mələyə qədər yüksəlməlidir. Başqa sözlə desək, Peyğəmbərə üz tutmaq elə mələklə yaxınlaşmaq deməkdir. Çünki Allahın kəlamı Peyğəmbərə mələk vasitəsilə çatdırılıbdır. Deməli, salikin seçdiyi yol çox ağır və məşəqqətlidir. Çünki Şeytan bilavasitə insana təsir edə bilər. Burada başqa bir sual da meydana gələ bilər? Quranda Allah mələklərə insana səcdə etməyi buyurur. Əgər mələklər insana səcdə edirsə, onda Cəbrayıl da insana səcdə etməlidir. İnsan ruhunu təmizlədikcə, yeddi eşq vadisini keçdikdən sonra öz ruhunun necə paklaşdığını görür. İnsan mələyə qədər yüksəlir. Amma saliklərin məqsədi mələk yox, Allah idi. Mələklərə insana səcdə olunmasını onu göstərir ki, insan mələkdən üstün varlıqdır.

Yəni insanda elə imkanlar vardır ki, bundan da yüksəyə qalxa bilərlər. Bu da ariflərin əsərlərində nəzərdə tutulan həmin kamil insandır.

Fəridəddin Əttarın əsərlərində yaratdığı kamil insan obrazı aşağıdakı xüsusiyyətlərə malikdir:

Əttar gah rəmz dili ilə kamil insanın varlığının zərurətini bəyan edir, gah da aşkar şəkildə onu təqdim edərək deyir:

محمد مقتدای هر دو عالم　　محمد مهتدای آل آدم
محمد آفتاب آفرینش　　مه افلاک یعنی چشم بینش
چراغ معرفت شمع نبوت　　سراج امت و منهاج امت (9)

Hər iki aləmin müqtədası Məhəmməd,
Ali-Adəmin mühtədası Məhəmməd.
Məhəmməd yaranışın günəşi,
Fələkləri ayı, yəni görən gözü.
Nübubbət şamının mərifət çıxrağı,
Ümmətin çırağı, ümmətin yolu.

Əttarın əsərlərində kamil insan həm nəzəri, həm də əməli irfan baxımından araşdırıla bilər. O nəzəri irfan baxımından kamil insanı haqqın aynası bilir ki, onun varlığındakı hər bir gözəllik o mütləq camalın əksidir. Onun qəlbi dünyanı göstərən cam və ilahi sirlərin təcəlla yeridir.

عزیزا هر دو عالم سایه تست　　بهشت و دوزخ از پیرایه تست
تویی از روی ذات آیینه شاه　　شه از روی صفاتی آیه تست (9)

Ey əziz, hər iki aləm sənin kölgəndir
Behişt və cəhənnəm sənin zinətindəndir
Sənsən zatın üzündən şahın aynası
Şahın sifətləri sənin nişanən

O, aləmin qütbüdür ki, hər bir şey onun orbitində fırlanır və hətta fələklərin fırlanması da onun ehtiramına görədir. Dünyanın əsas qütbü Həzrət Məhəmməddir (s) və Kəbə onun vasitəsilə Beytullah xalatını əyninə geyinmişdir. Ondan sonra Əlini (ə) dünyanın göbəyi olan Kəbədə doğulduğuna görə aləmin və Ali-Yasinin qütbü bilir.

قطب اصل او بود پیدا و نهان　　سر از آن بر کرد از ناف جهان
او چون قلب آل یاسین آمدست　　قلب قرآن یا و سین زین آمد ست
قلب قرآن قلب پر قرآن اوست　　وال من والاه اندر شان است. (9)

Onun əslinin qütbü aşkar və gizlin idi
Dünyanın göbəyindən baş qaldırdı
O Ali-Yasinin qəlbi kimi gəlmişdir
Quranın qəlbi, Ya və sin ondan gəlmişdir
Quranın qəlbi onun Quranla dolu qəlbidir
Mənim Alım və onun Alı şəndədir

Əttarın kamil insanı məstlik və ayıqlıq, fəna və bəqa, küfr və iman halları arasında qalan kəsdir. Onun “Divanı”nın xüsusən qəzəllər hissəsində təzadlı hallarla rastlaşırıqsa, bu ona görədir ki, o kamili bir məqam və halın bəndində görmür, əksinə, kamillik bəzən “özsüzlük”,

bəzən “özlülük” halındadır. Bu zaman nə məstlik ona üstün gələ bilir, nə də huşyarlıq. Bu onun kamalının nişanəsinə çevrilir.

زمانی کل شده در قدس و پاکی
زمانی آمده در قید خاکی
گهی بیخود، گهی باخود و حالش
که تا هم زین بود هم زان کمالش (9)

Bir zaman küll müqəddəs və paklıqda olmuş,
Bir zaman torpağın qeydində gəlmiş
Gah özsüz, gah özlü və halı
Həm bundan, həm ondan idi kamalı

Kamil insanın digər xüsusiyyəti elmi-lədünnidir. “Məntiqüt-teyr”də quşların rəhbərliyini öhdəsinə götürən şanapipik Allahın ismi-əzəminə malikdir ki, Rəhman və Rəhim isminin bütün xüsusiyyətlərini əhatə edir. Şanapipik buna görə də qeybin sirlərindən xəbərdardır. Şanapipiyin dimdiyində bismillahın olması kamil insanın elmi-lədünnisi üçün bir rəmzdir.

Əttar birliyi qəbul etməsə də, haqqda istiqraq ya fənaya inanır.

اینجا حلول کفر بود اتحاد هم لیکن        وحدتست لیک به تکرار آمده
یک صانعست و صنع هزاران بیش        جمله ز نقد علم نمودار آمده
این را مثال هست به عینه یک آفتاب        کز عکس او در کون پرانوار آمده (9)

Burda hülul küfr idi, ittihad da
Vəhdətdir, lakin təkrarla gəlmiş
Bir yaradandır, minlərlə yaranmışdan artıq
Hamısı elmin təhlilində zahir olmuş
Bunun misalı eyni günəşdir
Onun əksindən nurlarla dolu gəlmiş

Allah-Təalanın xüsusiyyətlərindən biri Onun naməhdud əzəmətindən qaynaqlanan nişansızlığıdır ki, vəsfə sığmır. Onun bu xüsusiyyəti yaranış aləmində seçdiyində təcəlla edir.

ز کنه ذات او کس را نشان نیست
که هر چیزی که گویی اینست آن نیست (9)

Onun zatının əslindən kimsədə nişan yox
Hər nəyi ki, deyirsən budur, o deyil.

Kamil insanın əlamətsizliyi iki baxımdan məna kəsb edir. Biri bəşəri xüsusiyyətlərin inkarı nəticəsində onda yaranmışdır, digəri isə onun qürbətdə olub tanınmaması baxımındandır.

سالک راه تو بی نام و نشان اولیتر
در ره عشق تو با نام و نشان نتوان دید. (9)

Sənin yolunun saliki daha əvvəl adsız və nişansızdır,
Sənin eşqinin yolunda adla və nişanla görmək olmaz.

Buna görə də, Əttar kamilləri gizli xəzinələr və iki aləm sədəfinin mirvarisi sayır:

گنجهای مخفی اند این طایفه
لاجرم در گلخن و ویرانه اند
هر دو عالم یک صدف دان
وین گروه در میان آن صدف دردانه اند.

Bu tayfa gizli xəzinələrdir
Çarəsiz qazanxana və viranədədirlər
Hər iki aləmi bir sədəf bil
Bu qrup o sədəfin arasında dürdanədir.

Əttar əməli irfanda da kamala çatmaq üçün öz düzgün baxışlarını bəyan etmiş, gözəl əxlaq, səxavət, şücaət, Allah dərgahında yalvarış və digər dəyərləri maraqlı hekayələrdə göstərmişdir.

O, şəriətə bağlılığın zərurəti, nəfslə mübarizə, ilahi əxlaqı kəsb etmək, inkişaf və başqa məsələləri qeyd etmişdir. Əttar saliki nəfsini təmizləmək üçün aclığa, danışmamağa, inzivaya, ölümün xatırlanmasına dəvət edir. Əttar kamal yolunun maneələri ilə mübarizədə salikin ən mühüm vəzifəsini pirin tapılmasında və ona təslimində görür. O "Məntiqüt-teyr"də məcazi eşq körpüsündə dayanmağı, dünyaya hərisliyi, ibadətdə riyakarlığı, paklıq və kəramət iddiasını kamal yolunun maneələri kimi sadalayır. Bütün maneələrin kökü salikin özünün nəfsindədir ki, onlarla mübarizə aparmalıdır. Əttarın kamil insanı səbr və mərdanəliklə tələb, eşq, mərifət, istiqna, tövhid, heyrət, fəqr və fəna vadilərini arxada qoyub sonda özünü tanımağa nail olan, talib və mətlubun vəhdətini dərk edən kəsdir.

**Nəticə**

*Dediklərimizdən belə nəticə ala bilərik ki, Əttarın hər üç əsərində insan ruhunun kamilləşmə məsələsi ortaya qoyulmuşdur. Əttar və onun kimi onlarla mütəfəkkir şairin bir fikri vardır. Bütün insanların ruhu vardır. Bu ruh kamilləşməli və öz həqiqətini tanımalıdır. Kamilliyə çatmaq üçün yollar da müəyyən olunmuşdur. İnsan ruhu kamilləşdikdən, bu dünyanın zəncirlərindən xilas olduqdan sonra müqəddəs ruha yüksəlir.*

**Ədəbiyyat siyahısı:**

1. زرین کوب عبد الحسین، با کاروان حله، تهران، 1374، 472 ص.
2. سجادی سید ضیا الدین، مقدمه ای بر مبانی عرفان و تصوف، تهران، 1386، 337 ص.
3. صفا ذبیح الله، تاریخ ادبیات در ایران (حلد دوم)، تهران، 1363، 1128 ص.
4. فروزانفر بدیع الزمان، شرح احوال و نقد و تحلیل آثار شیخ فرید الدین عطار نیشابوری، تهران، 1374، 562 ص.
5. نیشابوری فرید الدین عطار، الهی نامه، تصحیح و مقدمه از هلموت زیتر، انتشارات توس، 1367، 439 ص.
6. نیشابوری فرید الدین عطار، منطق الطیر، به اهتمام دکتر احمد رنجبر، انتشارات اساطیر، 1359، 665 ص
7. https://ganjoor.net/attar/mosibatname/
8. https://ganjoor.net/attar/manteghotteyr/
9. https://www.noormags.ir/view/fa/articlepage/1095/37/text

**Айгюн Ализаде**

**Концепция «совершенного человека» в литературе ирфана**

Основной характерной чертой произведений *ирфан*а, отличающей её от других произведений, является, лежащая в её основе, концепция «совершенного человека». То есть, в этих произведениях человек для достижения истинного совершенства, должен двигаться по пути, предначертанному Аллахом и, пройдя различные этапы и *макам*ы

(духовные стоянки), соединиться с Творцом. Согласно произведению «Мантик ат-тайр» Аттара, *салик* (путник, следующий пути *тасаввуф*а) должен пройти семь долин любви, совершенно освободиться от привязанностей этого мира, для того, чтобы достичь своей цели. Литература *ирфан*а весьма богата такими примерами и в настоящей статье мы затронули некоторые из них.
***Ключевые слова:*** *литература ирфана, совершенный человек, произведение, душа.*

**Aygun Alizade**
**The experienced man conception in the wisdom literature**
The characteristic feature with experienced man conception differentiates the works of wisdom content from other works. That`s way, according to these works a person have to strive in the way of God to reach real perfection, after passing through various stages and moments, he should be able to reach the Creator. According to the Farid-al-Din Attar's "Mantiq al-Teyr", every lover have to pass seven levels to reach the Creator. Wisdom literature is so rich in such examples and this paper covers all of them.
***Key words:*** *wisdom literature, experienced man, work, the spirit*

Redaksiyaya daxil olma tarixi: 23.06.2019
Çapa qəbul olunma tarixi: 07.07.2019

Filologiya üzrə elmlər doktoru, professor
**Mehdi Kazımov** tərəfindən çapa tövsiyə olunmuşdur.